**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 002/253**

**Bakı şəhəri** **“23” yanvar 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 16-20 yanvar tarixli rəsmi məlumatlarına əsasən, Fransa Respublikasının Yeni Akvitanya (Nouvelle-Aquitaine) regionunda və Rusiya Federasiyasının Mari El (Mariy El) Respublikasında Nyukasl, Avstriya Respublikasının Yuxarı Avstriya (Oberösterreich) inzibati ərazi vahidində, Almaniya Federativ Respublikasının Meklenburq-Ön Pomeraniya (Mecklenburg-Vorpommern), Bavariya (Bayern) vilayətlərində, Çexiya Respublikasının Ustetsk (Ústecký), Kraloveqradetsk (Královéhradecký), Zlin (Zlínský) diyarlarında və Filippin Respublikasının Kapiz (Capiz) əyalətində isə yüksək patogen quş qripi (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Fransa Respublikasının Yeni Akvitanya regionunda və Rusiya Federasiyasının Mari El Respublikasında Nyukasl, Avstriya Respublikasının Yuxarı Avstriya inzibati ərazi vahidində, Almaniya Federativ Respublikasının Meklenburq-Ön Pomeraniya, Bavariya vilayətlərində, Çexiya Respublikasının Ustetsk, Kraloveqradetsk, Zlin diyarlarında və Filippin Respublikasının Kapiz əyalətində isə YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Fransa Respublikasının Yeni Akvitanya regionundan və Rusiya Federasiyasının Mari El Respublikasından ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş əti və hər növ quşçuluq məhsulları (ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləs”inin 10-9-20-ci və 10-9-21-ci maddələrinə uyğun olaraq, Nyukasl viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Avstriya Respublikasının Yuxarı Avstriya inzibati ərazi vahidindən, Almaniya Federativ Respublikasının Meklenburq-Ön Pomeraniya, Bavariya vilayətlərindən, Çexiya Respublikasının Ustetsk, Kraloveqradetsk, Zlin diyarlarından və Filippin Respublikasının Kapiz əyalətindən ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4.23-cü və 10.4.25-ci maddələrinə uyğun olaraq, quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, Avstriya Respublikasının Yuxarı Avstriya inzibati ərazi vahidinin, Almaniya Federativ Respublikasının Meklenburq-Ön Pomeraniya, Bavariya vilayətlərinin, Çexiya Respublikasının Ustetsk, Kraloveqradetsk, Zlin diyarlarının və Filippin Respublikasının Kapiz əyalətinin sağlam ərazilərindən ölkəmizə idxal edilən adıçəkilən məhsullar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**5.** Xəstəliyin aşkarlandığı tarixə kimi qeyd olunan ərazilərdən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş müvafiq məhsulların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**6.** Bu qərarın 2-ci və 3-cü bəndlərinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün, habelə Fransa Respublikasının Yeni Akvitanya regionundan, Rusiya Federasiyasının Mari El Respublikasından, Avstriya Respublikasının Yuxarı Avstriya inzibati ərazi vahidindən, Almaniya Federativ Respublikasının Meklenburq-Ön Pomeraniya, Bavariya vilayətlərindən, Çexiya Respublikasının Ustetsk, Kraloveqradetsk, Zlin diyarlarından və Filippin Respublikasının Kapiz əyalətindən gələn, eyni zamanda bu inzibati ərazi vahidlərindən tranzitlə keçib respublikamıza daxil olan nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**7.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**8.** Bu qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**9.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**